# Həftəlik *Bülleten*

**060**

**13 Sentyabr 2024**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycan – İtaliya münasibətləri Avropa İttifaqına nümunədir.**

Azərbaycan regionun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Ölkəmizin xarici siyasəti, səmərəli daxili siyasətin davamıdır. Bu gün Azərbaycan xarici siyasətdə bütün ölkələrlə konstruktiv münasibətləri yalnız milli maraqlar çərçivəsində qurur. Dünyanın aparıcı dövlətlərindən olan İtaliyanın Azərbaycanla əlaqələrin inkişafına önəm verməsi, Azərbaycanın tərəfdaş seçmək bacarığına əsaslanır. Azərbaycanın Cənubi Qafqazda İtaliyanın əsas ticarət tərəfdaşı olduğunu və bu ölkənin regionla reallaşdırdığı ticarətin 95 faizinin Azərbaycanla aparması, ölkəmizin yürütdüyü uğurlu xarici siyasətin təzahürüdür. Azərbaycan - İtaliya münasibətləri uğurla inkişaf edərək strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına işgüzar səfəri çərçivəsində keçirilən dəyirmi masada "MATANAT A" Şirkətlər Qrupu ilə İtaliyanın “Comec” şirkəti arasında dünyada son innovasiyaya əsaslanan və unikal ixtira əsasında hazırlanmış zavodun alınması ilə əlaqədar ikitərəfli memorandum imzalandı. İmzalanmış memorandum əsasında bu il alışı həyata keçiriləcək unikal zavodun fəaliyyətinin ilk dəfə olaraq ölkəmizdə tətbiq olunması şirkətlər qrupunun növbəti uğurlarından biridir. Bütün bu nailiyyətlər onu deməyə əsas verir ki, Azərbaycanda sahibkarların etibarlı himayədarı olan Prezident İlham Əliyevin reallaşdırdığı məqsədyönlü siyasət hesabına özəl sektor yeni və qlobal inkişafına qədəm qoyur. Bu gün ölkəmiz iqtisadiyyat sahəsində inkişafının dünyanın bir çox qabaqcıl ölkələrinə nümunə ola biləcək Azərbaycan modeli özünə getdikcə daha çox diqqət çəkməkdədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin böyük əməyi sayəsində yürüdülən xarici siyasət xalqımızın mənafeyini, müstəqil dövlətimizin inkişafını və perspektivlərini müəyyənləşdirir.

Elxan BƏŞİROV
“MATANAT A” Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri
Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) sədri

**“Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları”nda dəyişiklik edilib.**

Nazirlər Kabineti 28 sentyabr 2023-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları”nda dəyişiklik edib.
Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.
Qərara əsasən, bundan sonra tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin məbləğini Tarif (Qiymət) Şurası təsdiq edəcək.



## "Azvirt" serblər üçün 2 ən yaxşı şirkətdən biridir

Bu günlərdə - sentyabr ayının 4-də isə "Azvirt" MMC-nin Çindən olan konsorsium tərəfdaşları ilə Bosniya və Hereqovinada birgə ərsəyə gətirdiyi unikal yol tikinti əsəri – Poçitel körpüsü istifadəyə verildi. Açılışda Bosniya və Herseqovinanın Baş naziri Nermin Nikşiç, Xorvatiyanın Baş naziri Andrey Plenkoviç və digər rəsmilər iştirak ediblər. Bu nəhəng körpünün uzunluğu 983,75 metr, hündürlüyü isə demək olar ki, 100 metrdir. Bu yol qurğusu 6 sütun (viaduklar) üzərində dayanır. Körpünün tikintisində maksimum dayanıqlığı və davamlılığı təmin etmək üçün ən müasir materiallardan və texnologiyalardan istifadə olunub. Körpüdə ümumilikdə 38 min kubmetr beton, 9 min ton armatur və 1500 ton qabaqcadan gərginlikli naqillər çəkilib. "Azvirt"in Serbiya və Bosniya və Herseqovina üzrə baş direktoru Murat Türkoğlu bildirib ki, açılışdan sonra Bosniya və Herseqovina regionun ən hündür və ən gözəl körpülərindən birini əldə etdi: "Şirkətimiz üçün bu körpü təkcə infrastruktur layihəsi deyil, həm də Bosniya və Herseqovinanın və bütün regionun tərəqqisinin və əlaqəsinin simvoludur. Qeyd edək ki, Azərbaycan dövlətinin dəstəyi ilə xaricdə fəaliyyət göstərən "AzVirt" şirkəti 2012-2016-cı illərdə Serbiya və Monteneqro arasında 11-ci Dəhlizin Liq-Prelina hissəsinin tikintisini uğurla tamamlayıb. 2023-cü ildə isə Belqrad Dairəvi yolu istifadəyə verilib. Hazırda balkanlarda Bosniya və Herseqovinada konsorsium tərəfdaşları ilə birlikdə Vranduk-Ponirak layihəsinin tikintisi davam etdirilir.





**Rusiyanın iri tikinti holdinqi Azərbaycanda layihələr həyata keçirir.**

“Natsproyektstroy” artıq bu gün Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Serbiyada layihələr həyata keçirir. Bu barədə “Bamstroymexanizatsiya” İdarəetmə Şirkətinin (“Natsproyektstroy”un bir hissəsi olan BSM) baş direktoru Vüsal İsmayılzadə Şərq İqtisadi Forumunda “İnfrastrukturun inkişafı Avrasiya inteqrasiyasının dominantı kimi” mövzusunda diskussiya zamanı məlumat verib.

Onun sözlərinə görə, Rusiyada infrastruktur layihələrinin həyata keçirilməsi üzrə xidmət və bilik ixrac edə bilən iri oyunçular peyda olub: “Səriştələrə gəlincə, bu gün “Natsproyektstroy” yəqin ki, bütün səlahiyyətlərə malik olan ən böyük tikinti holdinqidir. Təkcə Baykal-Amur Magistral xəttində orta hesabla 23 min nəfər, eyni zamanda, tikinti sahələrində təxminən 12 min insan işləyir. Düşünürəm ki, qarşıya xarici bazarları daha da genişləndirmək vəzifəsi qoyularsa, biz bunu mütləq yerinə yetirəcəyik”.

Qeyd edək ki, Azərbaycanın “Rail Trans Service” tikinti şirkəti “1520” şirkətlər qrupuna daxil olan “Bamstroymexanizatsiya” ilə müqavilə bağlayıb. Saziş Baykal-Amur magistralının modernləşdirilməsi layihəsi çərçivəsində bağlanıb.



**Vatikan qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasının bərpasına dair müqavilə imzalanıb.**

Vatikan şəhəri dövləti üzrə qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında (Basilica of Saint Paul Outside the Walls) bərpa işlərinə dair müqavilə imzalanıb. Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa imzalayıblar. Heydər Əliyev Fondundan verilən məlumata görə, Vatikana səfər çərçivəsində eyni zamanda Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa və bir sıra digər rəsmi şəxslərlə görüş keçirilib. Görüşdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əlaqələr, Heydər Əliyev Fondu ilə birgə layihələr müzakirə olunub. Qeyd edək ki, ötən müddətdə Heydər Əliyev Fondu Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin bərpasına, mədəni irsin qorunması sahəsində işlərə öz töhfəsini verib. Daha sonra Azərbaycan nümayəndə heyəti Müqəddəs Pavel Bazilikasını ziyarət edib. Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxildir. 2025-ci ildə Vatikanda hər 25 ildən bir təşkil olunan Müqəddəs Yubiley İli çərçivəsində 30 milyondan çox katolik zəvvarın bu kilsəni ziyarət etməsi gözlənilir.



**"Sadıqoğlu" şirkəti tərəfindən böyük tikinti materialları bazarı inşa olunur.**

Cəbrayılda ən mühüm əhəmiyyətə malik ərazilərdən biri İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən 2021-ci ilin yanvarında cənab Prezident İlham Əliyevin göstərişi ilə yaradılan Araz Vadisi İqtisadi Zona Sənaye Parkıdır. Araz Vadisi İqtisadi Zonasının yaradılması bütün regionun, o cümlədən Cəbrayıl rayonunun inkişafı üçün önəmli hadisədir. 200 hektar əraziyə malik olan sənaye parkı Cəbrayıl rayonunun Soltanlı kəndində yerləşir. İqtisadi Zonaların İnkişafı Agentliyinin Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının inzibati rəhbəri Malik Haciyev bildirdi ki, sənaye parkında 4 min kubmetr həcmində su anbarı tikilir. Sənaye parkında hazırda ikimərtəbəli böyük inzibati binanın tikintisi gedir, elektrik yarımstansiyası və 12 ədəd transformator məntəqələri tikilir və daxili yollar çəkilir. Hazırda sənaye parkının 11 rezidenti və 2 qeyri-rezidenti var. Xatırladaq ki, qeyri-rezidentin keçən il iyunun 17-də dövlətimizin başçısı İlham Əliyevin və Macarıstanın Prezidentinin iştirakı ilə açılışı oldu. Digər layihə beton zavodudur ki, yaxın günlərdə fəaliyyətə başlayacaq. Daha bir layihə quru qatqılar, yəni suvaq işi materiallarının istehsalıdır. "Qarabağ İnkişaf Şirkəti" 2 model pultla işləyən texnikaların, yanğınsöndürmə maşınlarının və çadırlı tır qoşqularının istehsalını həyata keçirəcək. "Sadıqoğlu" şirkəti tərəfindən böyük tikinti materialları bazarı inşa olunur.



**Ədliyyə nazirliyi və Mediasiya Şurasının birgə fəaliyyəti nəticəsində prosesin rəqəmsallaşması həyata keçirilib.**

Ədliyyə Nazirliyi və Mediasiya Şurasının birgə fəaliyyəti nəticəsində hüquqi və fiziki şəxslərin mediasiya xidmətlərindən daha rahat və asan istifadəsinin təmin edilməsi məqsədi ilə mediasiya proseslərinin rəqəmsallaşdırılması həyata keçirilib. Belə ki, bu günədək mediasiya təşkilatlarına müraciətlər rəsmi qaydada poçt vasitəsi ilə, e-mail üzərindən, yaxud da vətəndaşların mediasiya təşkilatlarına birbaşa müraciət etməsi ilə baş tuturdu. Artıq ölkəmizdə fəaliyyət göstərən bütün mediatorlar və mediasiya təşkilatları barədə ətraflı məlumatlar Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalına (https://courts.gov.az/) inteqrasiya edilib. Bundan sonra fiziki və hüquqi şəxslər həmin portal vasitəsi ilə bütün mediasiya təşkilatları və mediatorlar barədə ətraflı məlumat əldə etmək, habelə istənilən mediatora və mediasiya təşkilatına elektron formada müraciət etmək imkanına malik olacaqlar. Bunun üçün fiziki və ya hüquqi şəxslər hər hansı autentifikasiyadan keçmədən Vahid Məhkəmə Portalında "Mediatorlar" başlığına (https://courts.gov.az/mediators) daxil olaraq bütün regionlar üzrə mediasiya təşkilatları, habelə ayrı-ayrı mediatorlar barədə ətraflı məlumatla tanış ola bilərlər. Elektron formada müraciət etmək üçün həmin hissədə "Müraciət et" bölməsi seçilməklə açılan pəncərədə fiziki şəxslər fərdi identifikasiya nömrəsini və doğum tarixini, hüquqi şəxslər isə VÖEN-ni daxil edir. Növbəti pəncərədə müraciətçi tələb edilən məlumatları (mediasiyaya müraciət edərkən qanunvericiliklə müəyyən edilmiş məlumatlar - müraciət edənin və qarşı tərəfin adı, soyadı, atasının adı, ünvanı, əlaqə nömrəsi, mübahisənin növü və predmeti, müraciət etmək istədiyi təşkilat, mediator və s.) əlavə edərək ilkin mediasiya sessiyası üçün elektron ərizə formasını doldurur və qarşı tərəfə göndərməli olduğu "mediasiya prosesinin tətbiqi barədə təklif"i, habelə həmin təklifin qarşı tərəfə çatmasını təsdiq edən poçt sənədini "pdf" formatında yükləməklə müraciətini yekunlaşdırır. Qaydalara uyğun edilmiş müraciət barədə dərhal müraciət edilmiş mediasiya təşkilatına məlumat daxil olur və bundan sonra mediasiya təşkilatı edilmiş müraciət üzrə mediator təyin etməklə mediasiya proseslərinə başlayır. Həmçinin müraciətçinin bu portal vasitəsi ilə müraciətinin hansı mərhələdə olmasını izləmək, bildirişlər əldə etmək və ya əlavə müraciətlər etmək imkanı da vardır.

**ATMİA üzvləri COP29 tədbiri ilə əlaqədar mikro, kiçik və orta biznes (KOB) subyektlərinin yaşıl iqtisadiyyata keçidi ilə bağlı aktual məsələlərin müzakirəsi məqsədilə “Yaşıl iqtisadiyyatda kiçik və orta biznesin rolu” mövzusunda keçirilən konfransda iştirak etdilər.**

9 sentyabr 2024-cü il tarixində ATMİA üzvləri COP29-a həsr olunmuş konfransda iştirak etmişdirlər. İqtisadiyyat naziri cənab Mikayıl Cabbarov, Ekologiya və Təbii Sərvətlər naziri cənab Muxtar Babayev, KOBİA sədri Orxan Məmmədov və AZPROMO rəhbəri Yusif Abdullayevin iştirakı ilə təşkil olunan konfransda yaşıl iqtisadiyyata töhfə ilə bağlı sistemli işlərin həyata keçirilməsindən danışılmış, produktiv müzakirələr aparılmışdır.






**Ağdağ Ustalar Qrupunun Şəki şəhərində "MATANAT A" şirkətlər qrupunun istehsal etdiyi məhsulların təqdimat tədbiri baş tutmuşdur.**

Matanat A Ustalar Klubuna daxil olan Ağdağ Ustalar Qrupunun Şəki şəhərində, Azərbaycanın və regionun inşaat materialları bazarında liderliyini qoruyub saxlayan "MATANAT A" şirkətlər qrupunun istehsal etdiyi məhsulların təqdimat tədbiri baş tutmuşdur.

Tədbir zamanı şirkətin Müştəri Loyallığı şöbəsinin müdiri, Əkbər Dostumalıyev öz çıxışında şirkətin inkişaf yolu və gələcək məqsədləri ilə bağlı məlumat verib. Eyni zamanda "Ağdağ Natural Gipskarton Lövhələri"nin üstünlükləri, "FUGAPLASTER" aralıq doldurma qarışığı, FASMİNERAL və "AĞDAĞ" məhsulları haqqında ustalara ətraflı məlumat verildi. Verilən məlumatlar, təşkil olunan master klasslar iştirakçılar tərəfindən dərin rəğbətlə qarşılandı.

Kluba üzv olan ustaların birbaşa iştirakı ilə master klass həyata keçirildi. Şirkətin istehsal etdiyi məhsulları test edərək keyfiyyəti ilə daha yaxından tanış olub, öz müsbət fikirlərini bildirdilər.





**Hörmətli sahibkarlar!**

Rusiyanın Bakıdakı Ticarət-Sənaye Palatası və Tatarıstan Respublikasının Ticarət-Sənaye palatası 17 sentyabr, saat 15:00-da ATMİA-nın qonağı olacaq. Rusiyaya ixracat, investisiya, eləcə də idxal və Rusiya Federasiyası şirkətləri ilə əməkdaşlığa maraqlı şirkətlər iştirak edə bilər.

Yerlər məhdud olduğu üçün qeydiyyatdan keçən ilk 5 şirkət görüşdə iştirak edəcək.

**Tel.: 0502653634**

# ANONS




**Hörmətli sahibkarlar!**

17-18-19 sentyabr tarixlərində Baku Ekspo Mərkəzində Azərbaycan Çin Şirkətləri Beynəlxalq Ticarət sərgisi baş tutacaqdır. Sərginin məqsədi Çin şirkətləri ilə potensial əməkdaşlıq imkanlarının artırılması və iki ölkə arasında ticarət əlaqələrinin inkişafıdır.

ATMİA üzvləri sərgidə iştirak etməyə dəvət olunurlar!

İştirak üçün qeydiyyat: **010 250 03 24**

**Hörmətli sahibkarlar!**

16 sentyabr saat 14:30-da Azərbaycan Respublikası İqtisadiyyat naziri cənab Mikayıl Cabbarov, Pakistan İnvestisiya və Kommersiya nazirləri və s. səlahiyyətli şəxslərin iştirakı ilə Azərbaycan-Pakistan Biznes Forumu və B2B təşkil olunacaq.

anons

ATMİA

info@atmia.az www.atmia.az

# ANONS

**Hörmətli sahibkarlar!**

Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində 8 saylı Tikinti və Quraşdırılma işləri üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində hazırda ATMİA otağı yaradılıb. Üzvlərimizin şirkətləri ödənişsiz olaraq həmin otaqda öz məhsul və xidmətlərini təbliğ edə bilər. Məs: roll up, reklam baneri, məhsul nümunəsi, kataloqlar və s. təqdim edə bilərsiz.

Son müraciət tarixi: 16 sentyabr 2024

Tel.: 0102500324



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: BELARUSSIAN CONSTRUCTION WEEK**

**Tarixlər: 17 - 19 sentyabr 2024-cü il,**

**Məkan: Minsk-Arena, Minsk (Belarus)**

Pəncərə, Qapı, Dam, Şüşə, Keramika Sərgisi....

**Sərginin adı: CONSTRUCT IRAQ 2024**

**Tarixlər: 24-27 sentyabr 2024-cü il,**

**Məkan: Ərbil Beynəlxalq Sərgisi, Ərbil (İraq)**

İnşaat Sənayesi üçün Beynəlxalq Ticarət Sərgisi. Tikinti materialları və texnologiyaları, podrat xidmətləri, elektrik infrastrukturu, istilik, havalandırma, kondisioner (HVAC), nasos sistemləri...

**Sərginin adı: ARCHITECT @ WORK - POLAND 2024**

**Tarixlər: 25-26 sentyabr 2024-cü il,**

**Məkan: Amberexpo, Qdansk (Polşa)**

Memarlıq və İnteryer Dizayn Sərgisi. ARCHITECT@WORK sizə memarlar, daxili memarlar, dizaynerlər, mühəndislik büroları, layihə tərtibatçıları, texniki xidmətlər, şəhər və rayon şuraları ilə əlaqə saxlamaq imkanı verir.

**Sərginin adı: DWF - DOOR WINDOW FACADE INDONESIA 2024**

**Tarixlər: 25 - 27 sentyabr 2024-cü il,**

**Məkan: Cakarta Beynəlxalq Sərgisi (JIExpo), Cakarta (İndoneziya)**

Bina tikintisi, sənaye, kommersiya və yaşayış memarlığı, fasad və armatur ixtisasları ilə interyer dizaynı üçün texnologiyalar, avadanlıq, dekorativ materiallar və aksessuarlara həsr olunmuş sərgi

**"MİDA" MMC 9 milyonluq tikinti işləri ilə bağlı - TENDER KEÇİRİR**

"MİDA" MMC tikinti işləri ilə bağlı açıq tender elan edir.
Elanda Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi, Mədən 1, korpus 5 ünvanında yerləşən 9,0 ha torpaq sahəsində inşa olunan yaşayış kompleksində sahəxarici və sahədaxili su-kanalizasiya şəbəkəsinin və drenaj sisteminin tikintisi işləri nəzərdə tutulur.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əliyev Vüqar Təyyar oğlu/ Satınalmaların təşkili şöbəsi-Şöbə müdirinin müavini
Email: vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu: (+99412) 594-54-01 239



**Ağdamda yollar təmir olunacaq - TENDER ELAN EDİLDİ**

Ağdam Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda Ağdam rayonu ərazisində kəndlərdaxili yolların asfalt örtüyünün qurulması işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

İlkin Aslanov, mühəndis
Email : aslanovilkin78@mail.ru
Əlaqə telefonu : 0263250006



**2024-cü ilin ikinci yarım ili üzrə cari təmir işləri üçün tikinti materiallarının satın alınması**

Balakən su meliorasiya sistemlərinin istismarı idarəsi tender elan edir. Elanda 2024-cü ilin ikinci yarım ili üzrə cari təmir işləri üçün tikinti materiallarının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elxan Bodurov, Baş mühasib
Email: balakenssi@mst.gov.az
Əlaqə telefonu: +994507512670



**Ucar şəhərində yolların əsaslı təmiri işləri üzrə tender.**

Ucar rayonu İHB-nın ucar şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi tender elan edir.
Elanda Ucar rayonu İHB-nın ucar şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi Ucar şəhərində yolların əsaslı təmiri işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

İbrahimov Abdulla
Ucar rayon İHB-nın şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi
Email: ucar@ucar-ih.gov.az
Əlaqə telefonu: 0552019051





**www.atmia.az**